Soltan Abbas–90

# Muğanlı şairin yubileyi

**Şair, publisist , "Məmməd Araz" mükafatı laureatı Soltan Abbas 1933-cü ilin yanvarında Salyan rayonunun Ballıcalı kəndində dünyaya göz açmışdır. O, kəndə yaşayıb- yaratsa da, respublikanın ədəbi mühitində yaxından iştirak etmiş, maraqlı və yaddaqalan bədii və publisistik qələm nümunələri yarada bilmişdir. Soltan Abbas ötən əsrin 60-cı illərinin ədəbi nəslinin nümayəndələrindəndir. 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan S.Abbas bir sıra tanınmış qələm sahibləri ilə dostluq və yaradıcılıq əlaqələri saxlamışdır.**



Muğanın qocaman şairinin 90 illik yubileyinə həsr olunmuş musiqili ədəbi-bədii tədbir Neftçala Rayon İcra Hakimiyyəti və AYB-nin Muğan bölməsinin təşəbbüsü ilə keçirilmişdir. Şairin poeziya işığına Neftçala və Salyan rayonundan, həmçinin digər bölgələrdən tanınmış ziyalılar, şəhid ailələri, ictimaiyyət nümayəndələri, şairin qələm dostları və yaxınları toplaşmışdılar.

Çıxış edənlər Soltan Abbası yubileyi münasibəti ilə təbrik etmiş, ona yeni yaradıcılıq uğurları və gümrah həyat arzulamışlar. Yubilyara Neftçala RİH-in və AYB-nin Muğan bölməsinin fəxri fərmanları təqdim edilmişdir.

Mərasimdə yubilyarın 90 illik həyat və fəaliyyətinə aid videoçarx nümayiş etdirilmiş və bədii qiraət ustaları tərəfindən şeirləri səsləndirilmiş, yaddaqalan musiqi nümunələri ifa edilmişdir.

Sonda şairlə xatirə şəkli çəkilmişdir.

**Rüstəm MƏLİKOV,**
**"Qələbə" qəzetinin baş redaktoru**